# Mustafa Tuzcu: Türkiyə Ağdamın dirçəldilməsində Azərbaycanın ən böyük dəstəkçisidir

**Türkiyə dövləti torpaqların işğaldan azad edilməsi prosesində Azərbaycana böyük mənəvi-siyasi dəstək göstərdi. Hazırda da bu ərazilərin dirçəldilməsində ən böyük dəstəkçi Türkiyədir.**




Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) nümayəndə heyətinin Ağdama səfəri zamanı Türkiyənin ticarət nazirinin müavini Mustafa Tuzcu Trend-in Qarabağ bürosuna açıqlamasında bildirib ki, 30 ildən sonra işğaldan azad edilən Ağdamda olmaq çox qürurvericidir: "Bizim şirkətlərimizin Ağdamın bərpasına verəcəkləri töhfə yalnız ticari fəaliyyət deyil, həm də öhdəlikdir. Dövlətimiz, millətimiz buranın əvvəlki günlərinə qayıtmasına dəstək olacaq. 1992-ci ildən bu yana burada həyatını itirən bütün azərbaycanlı qardaşlarımızı yad edirik. Ümid edirik ki, bura yenidən adı kimi Ağdam - "Ağ ev" olar və dünyaya bu formada elan edilər."

Qeyd edək ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) nümayəndə heyəti Ağdama səfər edib. Səfər çərçivəsində Pənahəli xanın İmarət kompleksi, Ağdam Dram Teatrının binasının qalıqları, Ağdam Cümə məscidi, Qiyaslı məscidi və Şahbulaq qalası ziyarət edilib.

Xalq qəzeti. 2021.12 sentyabr.S.4.